Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 14 ” aprel tarixli
108 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 39.3-cü və 40-cı maddələrinə uyğun olaraq hazırlanmışdır və hava gəmilərinin beynəlxalq uçuş əməliyyatları, məşq uçuşları və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların təşkilinə dair tələbləri müəyyən edir.

1.2. Bu Qaydalar ilə tənzimlənməyən məsələlər “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 2 nömrəli Əlavə - “Uçuşların qaydaları” və 6 nömrəli Əlavə - “Hava gəmilərinin istismarı” (4-cü hissə daxil olmaqla) ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğun olaraq həyata keçirilir.

1.3. Bu Qaydalarda istifadə olunan anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

1.4. Hava gəmisi ilə insanların həyatına və sağlamlığına və ya əmlakına təhlükə yarada biləcək uçuşların yerinə yetirilməsinə yol verilmir.

### 2. Beynəlxalq uçuş əməliyyatları

2.1. Hava gəmilərinin uçuş əməliyyatları, o cümlədən beynəlxalq uçuş əməliyyatları Qanunun 56.5-ci maddəsinə əsasən hava məkanından istifadə və uçuş qaydalarına uyğun olaraq həyata keçirilir.

2.2. Hava gəmilərinin enməsi və qalxması üçün zəruri olan hallar və ya Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin (bundan sonra - Agentlik) icazəsi istisna olmaqla, fövqəladə vəziyyətin yaranması zamanı insanların həyatına və sağlamlığına və ya əmlakına təhlükə yaratmadan hava gəmisi enmənin icazə verdiyi hündürlükdə olmadıqda şəhərlərin və ya qəsəbələrin tıxaclı əraziləri üzərində və ya açıq havada insanların toplaşdığı (izdihamlı olduğu) yerlər üzərində uçuş yerinə yetirməsinə yol verilmir.

2.3. Agentlik tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq uçuşda iştirak edən hava gəmisinin kapitanları (komanda verən pilotları) arasında əvvəlcədən razılaşdırılma və idarə olunan hava məkanında formalaşma uçuşu (“formation flying”) istisna olmaqla hava gəmiləri heyətlə uça bilməz.

2.4. Hava gəmilərinin əməliyyat məhdudiyyətlərinin şərtlərinə uyğun olaraq və ya Konvensiyaya üzv dövlətin ərazisində olduqda həmin dövlətin icazəsi istisna olmaqla hava məkanının qadağan edilmiş və ya məhdudlaşdırılmış ərazisində uçuş əməliyyatı yerinə yetirilə bilməz.

## 3. Beynəlxalq uçuşlar zamanı vaxt rejiminin idarə edilməsi

3.1. Beynəlxalq uçuşlar yerinə yetirilərkən Razılaşdırılmış Ümumdünya Vaxtından (UTC) istifadə edilir. Vaxt gecə yarısından başlayaraq 24 saat formatında olmaqla saatlarla və dəqiqələrlə, tələb olunduqda isə saniyələrlə də ifadə edilməlidir.

3.2. Vaxt yoxlanılması nəzarət olunan uçuş yerinə yetirməzdən əvvəl, habelə tələb olunduqda uçuş vaxtı aparılır.

3.3. Məlumat bağlantısı rabitəsi tətbiq edildiyi hallarda vaxtdan istifadə olunduqda, həmin vaxt Razılaşdırılmış Ümumdünya Vaxtına (UTC) 1 saniyəlik dəqiqliklə uyğun olmalıdır.

## 4. Məşq uçuşları

4.1. Hava gəmisinin istismarçısının uçuş heyətini hava gəmisinin uçuş əməliyyatlarının həyata keçirilməsi prosedurlarına uyğun təlimatlandırmaq, yoxlamaq və ya tanış etmək məqsədilə keçirdiyi uçuşlar məşq uçuşlarıdır.

4.2. Təlim, sınaq və ya qeyri-kommersiya məqsədli sərnişin daşınmayan uçuşların keçirilməsi üzrə sinif və ya tip reytinqinin verilməsi yerinə Agentlik tərəfindən müəyyən edilmiş tələblərə uyğun ərizəçiyə icazə verilir. Bu icazənin qüvvəsi xüsusi uçuşu başa çatdırmaq üçün lazım olan vaxtla məhdudlaşır.

4.3. Ərizəçilər təlimatçının nəzarəti altında:

4.3.1. nümayiş, tələbə təcrübələri, ümumi tələbə səhvlərinin tanınması və düzəldilməsi daxil olmaqla uçuş təlimatı texnikası üzrə təlimat almalı;

4.3.2. uçuş təlimatı vermək üçün nəzərdə tutulan uçuş manevrlərində və prosedurlarında təlimat texnikalarını tətbiq etməlidirlər.

4.4. Hava şarları istisna olmaqla baza aerodromu və ya istismar meydançası və uçuş hazırlığının aparıldığı hər hansı alternativ baza aerodromları ən azı bir uçuş-enmə zolağı və ya son yaxınlaşma və qalxma zonası (FATO) təlim təyyarələrinə təlim uçuşları üçün istifadə edilən bütün hava gəmilərinin nümayiş hədləri daxilində enməyə və ya qalxmağa imkan verməlidir.

4.5. Akrobatik uçuş təlimi proqramı üzrə məşqlərə dair uçuş hazırlığını başa vurduqdan sonra tələbə pilot akrobatik manevrlərin ardıcıllığını ehtiva edən təkbaşına uçuş həyata keçirə bilmək qabiliyyətində olmalıdır. İkili təlim və nəzarət edilən təkbaşına təlim uçuşları hava gəmilərinin kateqoriyasına uyğunlaşdırılmalı və bu tip hava gəmilərinin icazə verilən manevrləri ilə məhdudlaşdırılmalıdır.

## 5. Xüsusi xarakterli aviasiya fəaliyyəti ilə əlaqədar əməliyyatlar

5.1. Hava gəmisinin kənd təsərrüfatı, tikinti, aerofotoçəkiliş, axtarış, araşdırma, reklam və bu kimi digər xüsusi xarakterli aviasiya fəaliyyəti ilə əlaqədar uçuş əməliyyatlarında istifadə edilən hava gəmilərinin uçuş əməliyyatları digər ümumi qaydalar ilə birgə bu Qaydalarla tənzimlənir.

5.2. Bu Qaydaların tələblərinə baxmayaraq qeyri-mürəkkəb motorlu hava gəmiləri ilə qeyri-kommersiya əməliyyatları və aşağıdakı əməliyyatlar aparıla bilər:

5.2.1. yarış uçuşları və ya uçan plakatlara dair əməliyyatlar;

5.2.2. təlim təşkilatları və ya aviasiya idman növlərini təbliğ etmək məqsədilə yaradılan təşkilatlar tərəfindən təşkilatın gəlir məqsədi olmadan həyata keçirdiyi

paraşütlə tullanmaları, yüksək qabiliyyətli külək planerinin digər hava planeri ilə yedəklənməsi və ya aerobatik uçuşlar.

5.3. Təhlükəli maddələri havadan buraxan zaman əməliyyatçı yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsinə, habelə uçuş əməliyyatının insanların toplaşmadığı və yaşayış məntəqələrindən mümkün qədər uzaq ərazilərdə həyata keçirilməsinə əmin olmalıdır.

5.4. Hava gəmisinin istismarçısı cihazla yaxınlaşma əməliyyatlarının vizual hissələrində vizual istinadların itirilməsi riskinin azaldılması məqsədilə hər bir uçuş əməliyyatına dair nəzərdə tutulan yola düşmə, təyinat və ehtiyat aerodromu üçün aerodrom əməliyyat minimumlarını təyin etməlidir.

5.5. Aerodromun əməliyyat minimumunun təyin edilmə metodu hava gəmisinin istismarçısının əməliyyat təlimatlarında (OM) təsvir edilir.

5.6. Uçuşun həyata keçirilməsi üçün uçuş əməliyyatlarından əvvəl hava gəmisinin kapitanı (komanda verən pilotu) hava gəmisinin uçuşa yararlı olmasından əmin olmalıdır.

## 6. Toqquşmaların qarşısının alınması

6.1. Uçuşun növündən və ya hava gəmisinin fəaliyyət göstərdiyi hava məkanının sinfindən asılı olmayaraq digər hava gəmiləri ilə potensial toqquşmaların qarşısının alınması məqsədilə hava gəmisinin bortunda sayıqlıq təmin edilməlidir.

6.2. Hava gəmisinin kapitanı (komanda verən pilotu) digər hava gəmiləri ilə toqquşma təhlükəsi yarada biləcək məsafədə yaxın məsafədə uçuş əməliyyatı həyata keçirməkdən çəkinməlidir.

6.3. Hava gəmisi öz istiqamətini və sürətini saxlamalıdır.

6.4. Digər hava gəmisinin məcburi qaydada yerə endiyini bildikdə hava gəmisi həmin hava gəmisinə yol verməlidir.

6.5. Aerodromun manevr sahəsində hərəkət edən hava gəmisi qalxan və ya qalxmaq üzrə olan hava gəmisinə yol verməlidir.

6.6. Qəzaya uğramış hava gəmisinə kömək etməyə gedən nəqliyyat vasitələrinə və bütün digər yerüstü hərəkət vasitələrinə üstünlük verilməlidir.

## 7. Hava gəmisinin istismarçısı ilə hava hərəkəti xidmətləri arasında koordinasiya

Hava hərəkətinə xidmət göstərən bölmələr hava gəmisinin istismarçısının tələblərini nəzərə almaqla hava gəmisinin istismarçısına və ya onun tərəfindən təyin edilmiş nümayəndələrinə lazım olan bütün məlumatların verilməsini təmin etməlidir.

## 8. Xəbərdarlıq xidməti

8.1. Xəbərdarlıq xidməti hava hərəkətinə xidmət qurumları tərəfindən aşağıdakı hava gəmiləri barədə həyata keçirilir:

8.1.1. hava hərəkətinə nəzarət xidməti təmin edilmiş bütün hava gəmilərinə;

8.1.2. uçuş planı təqdim etmiş və ya hava hərəkəti xidmətlərinə başqa şəkildə məlum olan bütün digər hava gəmilərinə;

8.1.3. qanunsuz müdaxilə aktı olduğu bilinən və ya şübhə edilən hər hansı hava gəmisinə.

## 9. Qaydaların tətbiqinə nəzarət

9.1. Bu Qaydalarla müəyyən edilmiş uçuş əməliyyatlarının həyata keçirilməsi ilə bağlı ümumi tələblər Qanunun 56.5-ci maddəsinə uyğun olaraq yerinə yetirilir.

9.2. Bu Qaydalarda nəzərdə tutulan bütün tələblərin yerinə yetirilməsinə nəzarət Agentlik tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”na uyğun olaraq müfəttiş yoxlamaları vasitəsilə həyata keçirilir.